# "MÜDRİK KƏLAMLAR" KİTABININ BƏDİİ TƏRTİBATI

**Ülkər Cabarova**

*BDU,Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistrantı*

Əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin fəxri professoru Abuzər Xələfov Azərbaycanda kitabxana işinin inkişafı sahəsində misilsiz xidmətləri olan alim, elm təşkilatçısıdır. Onun ən böyük xidmətlərindən biri Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin yaradılmasıdır. Abuzər Xələfovun böyük elmi irsi müəllim və tələbələr üçün məktəb rolunu oynayır. Bakı Dövlət Universitetində müəllim kimi fəaliyyətə başladığı müddətdən həyatının son gününə kimi A.Xələfov Azərbaycanda kitabxanaşünaslığın ayrı-ayrı problemləri üzrə ilk elmi tədqiqat işləri yazmış, yüzlərlə səriştəli kitabxanaçı kadrların, alimlərin yetişməsində misilsiz xidmətlər göstərmişdir.

Onun yaradıcılığında zəngin məzmunu, yüksək poliqrafik tərtibatı baxımdan seçilən kitablardan biri "Söz kitab mütaliə, kitabxana və kitabxanaçı haqqında müdrik fikirlər" əsəridir. Kitab 2014-ci ildə "Mütərcim" nəşriyyatında çap olunmuşdur. Müdrik kəlamların toplandığı kitabın redaktoru Knyaz Aslan əsərin müəllif orjinalının təkmilləşdirilməsi, məntiqi, üslub baxımından cilalanması prosesini uğurla tamamlamışdır. Toplu ön söz, 5 bölmə və köməkçi biblioqrafik göstəricilərdən ibarətdir. Kitaba ön söz professor Abuzər Xələfov tərəfindən yazılmışdır. Burada qeyd olunduğu kimi, bütün müdrik kəlamlar, aforizimlər zaman keçdikcə ya müdrik kəlamları söyləyənlərin əsərlərində, kitab və məqalələrində və yaxud da müqəddəs kitablarda, şifahi xalq yaradıcılığında qorunub saxlanmış, böyük elm, mədəniyyət, mənəviyyat abidəsi kimi dövrün burulğanlarındam keçərək zəmanəmizə gəlib çıxmışdır.

Kitabda mədəniyyət tariximizi öz çiynində daşıyan, milli sərvətimiz hesab olunan kitabxanalar haqında söylənilən yüzlərlə kəlamlar arasında Ümummilli Liderimiz Heydər Əliyevin kəlamı xüsusilə diqqəti cəlb edir: "Kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Kitaba dolğun məzmunlu annotasiya yazılmışdır. Annotasiyada qeyd olunduğu kimi tədqiqatçının uzun illər ərzində axtarışlarının bəhrəsi olaraq kitab haqqında elm, mədəniyyət və siyasət adamlarının

müdrik fikirləri yer almışdır. Kitabda titul, kolontitul, şmistitul elementləri, həmçinin tərtibatın vacib məsələlərindən biri olan illüstrasiyaların verilməsi, kitabın oxucuya göstərdiyi təsirlə vəhdət təşkil edir. Topluda məzmunu təşkil edən mətn və illüstrasiyalardan başqa kitab blokunun düzgün yığılmasında, oxucuya kitabda özünə lazım olan bölməni tapmasında kömək etmək məqsədilə "Müəlliflərin əlifba göstəricisi", "Müəllifsiz mənbələrin əlifba göstəricisi", "İstifadə edilmiş müəlliflər haqqında qısa biblioqrafik məlumat" və "Mündəricat" verilmişdir. Bütün məziyyətlərinə görə toplu hər bir kitabxanaçının masaüstü kitabına çevrilmişdir.